***İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ***
***ISSUES IN INCLUSIVE EDUCATION***

*UOT 373.25:31*

# SİNİFİN İDARƏ OLUNMASINDA İNKLÜZİV YANAŞMANIN STİMULLAŞDIRMASI

**Nəzrin Akif qızı Camalova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0002-2533-7032
**E-mail:** nezrincamalova61@gmail.com

***Açar sözlər:*** *inklüziv təhsil, sinfin idarə olunması, motivasiya, əməkdaşlıq, valideyn iştirakı*
***Ключевые слова:*** *инклюзивное образование, управление классом, мотивация, сотрудничество, участие родителей*
***Keywords:*** *inclusive education, classroom management, motivation, collaboration, parental involvement*

İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün uşaqların öyrənmə ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqogikadan istifadə edirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoji yanaşma yoxdur.

Uşaqyönlü pedaqogika nədir? Məktəbdə müəllimlər fərqli bilik, bacarıq, maraq və öyrənmə ehtiyacları olan uşaqlar ilə işləyirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi təlim üsulu olmadığından inklüziv mühitdə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya müəllimyönlü pedaqogikada müəllim stolları sıra və cərgə ilə düzür, bütün sinfin qarşısında durur, şagirdlərə bütün bilikləri hazır verir və şagirdlərə onların cavablarının doğru və ya yanlış olduğunu deyir. Qeyd olunanlar "yaxşı müəllimin xüsusiyyətləridir. Uşaqyönlü yanaşmada isə səmərəlilik üçün vacib şərt müəllimin davranışıdır. Müəllim dərs zamanı vəziyyətdən asılı olaraq sinfin müvafiq yerlərində durur, sinifdəki resurslardan istifadə edir, şagirdlər ilə ünsiyyət qurur və şagirdlərin öyrəndikləri bilikləri qiymətləndirir. [3,s.20]

Uşaqlar müxtəlif yollarla öyrənirlər. Əksər uşaqlar öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylı üsullarını asanlaşdırmalıdır. Uşaqyönlü pedaqogikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər:

1.Onların sinfindəki uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?

2.Niyə bəzi uşaqlar təlimdə başqaları kimi eyni sürətlə irəliləmir?

3.Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar hansılardır?

4.Strategiya və üsulların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalar necə tənzimlənməlidir?

5.Uşaqların motivasiyası necə yüksəldilməli və təlimə cəlb olunmalıdır?

Sinfin idarə olunması inklüziv təhsil mühitində daha çox diqqət və planlı yanaşma tələb edir. Müəllim sinifdə demokratik mühit formalaşdırmalı, uşaqlar arasında qarşılıqlı anlaşma və tolerantlıq münasibətlərini inkişaf etdirməlidir. İnklüziv sinifdə idarəetmə yalnız nizam-intizam yaratmaq deyil, həm də bütün uşaqların sosial və emosional ehtiyaclarını nəzərə almaq deməkdir.

**Nümunə 1.** IV sinifdə müəllim "Təbiət və insan" mövzusunda dərs keçir. Sinifdə bir şagird (Əli) eşitmə çətinliyi yaşayır. Digər şagirdlər isə tam eşidə bilir. Müəllim dərs prosesini elə qurur ki, Əli özünü sinfin tamhüquqlu üzvü kimi hiss etsin.

Müəllim lövhədə əsas sözləri, şəkilləri və tapşırıqları yazılı şəkildə təqdim edir. Bu, eşitmə çətinliyi olan şagirdin dərsi izləməsinə kömək edir. Nəticədə Əli dərsə tam qoşulur, özünü kənarlaşdırılmış hiss etmir. Və yaxud şagirdlər kiçik qruplara bölünür. Hər qrupda Əli də iştirak edir. Qrup yoldaşlarından biri ona tapşırıqları izah edir və cavablarını birgə təqdim edirlər. Belə olan halda şagirdlərdə empati, dostluq, yardımlaşma kimi əxlaqi keyfiyyətlər formalaşır. Müəllim Əlinin hər bir uğurunu tərifləyir, onu sinif qarşısında həvəsləndirir. Digər şagirdlərə də "biz bir komandayıq" mesajı verir. Müəllim sinifdə hörmət, tolerantlıq və bərabərlik mühiti yaranır.

İnklüziv strategiyalar sinifdə bütün şagirdlərin dərs prosesində aktiv iştirakını təmin etməlidir. Bu məqsədlə tədris prosesində fərqləndirilmiş təlim, əməkdaşlıq əsaslı öyrənmə və empatik yanaşma kimi pedaqoji prinsiplər əsas götürülür. Fərqləndirilmiş təlim müəllimə hər bir şagirdin fərdi imkanlarını, öyrənmə sürətini və maraqlarını nəzərə almağa imkan verir. Müəllim tədris planını hazırlayarkən şagirdlərin biliyinin səviyyəsini, psixoloji və sosial xüsusiyyətlərini, habelə onların öyrənmə tərzini qiymətləndirərək, hər kəs üçün münasib öyrənmə mühiti yaradır. Bu zaman müəllim bir mövzunu fərqli çətinlik dərəcələrində təqdim edə, vizual, eşidilən və praktik fəaliyyətlərdən istifadə edə bilər.

**Nümunə 2.** IV sinifdə müəllim "Həyat bilgisi" fənnindən "Təbiəti qoruyaq" mövzusunda dərs keçir. Sinifdə üç fərqli tip şagird var:

1. Nərgiz – görmə zəifliyi var, kitabdakı şəkilləri çətin görür.
2. Murad – çox aktivdir, tez yorulur, diqqətini toplamaq çətindir.
3. Ayan – dərslərdə çox utancaqdır, danışmaqdan çəkinir.

Müəllim dərs zamanı bütün bu fərqləri nəzərə alır və inklüziv strategiyalar tətbiq edir ki, hamı iştirak edə bilsin. Müəllim "Təbiəti qoruyaq" mövzusunu izah edərkən həm şəkilli plakat, həm də səsli təqdimat (qısa audio) istifadə edir. Görmə zəifliyi olan Nərgiz üçün yazıları iri şriftlə və kontrast rənglərlə təqdim edir. Nəticədə Nərgiz də digər şagirdlər kimi mövzunu qavraya bilir və aktiv iştirak edir. Yaxud müəllim uşaqları qruplara bölür, amma rolları fərqli təyin edir:

1.Murad (enerjili) – qrupun "məlumat toplayanı";
2.Ayan (utancaq) – "nəticə yazanı";
3.Nərgiz – "məlumat oxuyan" və "nəticəni səsləndirən".

Belə olduqda hər bir uşaq öz imkanına uyğun rolda iştirak edir. Heç kim kənarda qalmır.

*Vizual metodlar.* İnklüziv sinifdə dərsin başlanğıc mərhələsində istifadə edilir. Uşaqlar sinifdə ilk növbədə məktəb lövhəsini görürlər. O səmərəli istifadə olunmalıdır, vizual dayağı təmin etməlidir. İnformasiyanın ətraflı təsviri düzgün verilməlidir. Tapşırıqlar, şəkillər, sxemlər, cədvəllər, predmetlərin və təcrübələrin nümayişləri və s. lövhədə təqdim olunur. Bu da materialın möhkəm mənimsənilməsinə imkan yaradır.

*Praktik metodlar*. Dərs praktik metodlar əsasında formalaşır. Praktik metodlar öyrənmə prosesində uşaqlarda planlaşdırılmış elementlərin öyrənilməsinə, bilik və bacarıqların formalaşmasına yardım edir. Praktik metodun vasitələri:

1. Tapşırıq (yazılı və şifahi);
2. İnklüziv siniflərdə təlimin təşkili
3. Laboratoriya və praktik iş;
4. Rəsmçəkmə, applikasiya, qurma;

*Şifahi metodlar*. İdrak fəaliyyətini aktivləşdirməyə, düşüncəni formalaşdırmağa və yaranmış çətinliyə tez reaksiya verməyə şərait yaradır. Məsələn:

1. Nağıletmə (şeir. nağıl, hekayə);
2. Tamaşaların göstərilməsi;[3,s.39]

Müəllimin empatik kommunikasiya qurması və dərs zamanı müsbət rəy verməsi şagirdlərin dərsə marağını artırır, onların öyrənmə motivasiyasını gücləndirir.

**Problemin elmi yeniliyi.** Sinfin idarə olunmasında inklüziv yanaşma, uşaqların fərdi ehtiyaclarını nəzərə alaraq onların həm sosial, həm də akademik inteqrasiyasını təmin edən yeni baxışlarla təhlil olunur. Bu yanaşmada sinif yalnız nizam-intizam sistemi kimi qiymətləndirilməyib, eyni zamanda hər bir şagirdin potensialını reallaşdıran sosial mühit kimi qəbul edilir. Tədqiqatda diqqət qrup işləri, əməkdaşlıq texnikaları və empatik yanaşmalar vasitəsilə sinifdə stimullaşdırıcı pedaqoji üsulların tətbiqinə yönəldilmişdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Sinfin idarə olunmasında inklüziv yanaşmanın praktik əhəmiyyəti müəllimlərin sinifdə çevik və empatik idarəetmə bacarıqlarını inkişaf etdirməsi ilə bağlıdır. Bu yanaşma yalnız nəzəri prinsiplərlə məhdudlaşmır, eyni zamanda dərs prosesində effektiv tətbiq edilə bilər. Tətbiqi baxımdan, oyun texnologiyaları, əməkdaşlıq əsaslı layihələr və qrup işləri şagirdlərin sosial və emosional bacarıqlarını gücləndirir, onların dərsə marağını artırır və öyrənmə motivasiyasını yüksəldir. Beləliklə, sinifdə inklüziv yanaşmanın tətbiqi həm müəllimlər, həm də şagirdlər üçün praktik faydalar yaradır və təhsil prosesinin keyfiyyətini artırır.

## Ədəbiyyat

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya: Ali məktəblər üçün dərslik, Bakı, 2003.
2. İnklüziv sinifdə təlimin təşkili: Oxu materialı, Bakı, 2018.
3. K.Mahmudova, N.Cabbarlı, Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün "Həyat bilgisi" fənni üzrə dərslik. Bakı, 2023.

**N.A.Camalova**

**Sinifin idarə olunmasında inklüziv yanaşmanın stimullaşdırması**
**Xülasə**

Bu məqalədə sinfin idarə olunmasında inklüziv yanaşmanın stimullaşdırılması məsələləri ətraflı şəkildə araşdırılmışdır. Müasir təhsil sisteminin əsas prinsiplərindən biri bütün şagirdlər

üçün bərabər imkanların yaradılması və onların tədris prosesində aktiv iştirakının təmin edilməsidir. İnklüziv strategiyalar şagirdlərin fərdi ehtiyaclarını, maraqlarını və inkişaf səviyyəsini nəzərə alaraq sosial və akademik inteqrasiyanı gücləndirir. Fərqləndirilmiş təlim metodlarının tətbiqi hər bir şagirdin öz potensialına uyğun öyrənməsini təmin edir, əməkdaşlıq əsaslı layihələr və empatik yanaşmalar isə sinifdə müsbət və stimullaşdırıcı mühitin formalaşmasına xidmət edir.

Motivasiya və mükafatlandırma sistemlərinin düzgün təşkili isə həm fərdi, həm də kollektiv uğurların tanınmasına, nəticədə şagirdlərdə özünəinam və məsuliyyət hissinin möhkəmlənməsinə səbəb olur.

Məqalədə həmçinin valideynlərin və cəmiyyətin inklüziv təhsil prosesində iştirakı mühüm amil kimi vurğulanır. Məktəb, ailə və cəmiyyət arasında qarşılıqlı əməkdaşlıq uşaqların sosial adaptasiyasını asanlaşdırır, inklüziv dəyərlərin cəmiyyət səviyyəsində möhkəmlənməsinə kömək edir.

**Н.А.Джамалова**

**Продвижение инклюзивного подхода к управлению классом**
**Резюме**

В данной статье подробно рассматриваются вопросы стимулирования инклюзивного подхода в управлении классом. Основной принцип современной системы образования заключается в создании равных возможностей для всех учеников и обеспечении их активного участия в образовательном процессе. Инклюзивные стратегии учитывают индивидуальные потребности, интересы и уровень развития каждого ученика, способствуя их социальной и академической интеграции. Дифференцированное обучение позволяет каждому ребенку раскрывать свой потенциал, а совместные проекты и эмпатический подход создают положительную и стимулирующую образовательную среду.

Системы мотивации и поощрения обеспечивают признание как индивидуальных, так и коллективных достижений, повышая самооценку и ответственность детей.

Особое внимание уделено активному участию родителей и общества в процессе инклюзивного обучения. Взаимодействие школы, семьи и общества облегчает социальную адаптацию детей и укрепляет инклюзивные ценности на уровне общества.

**N.A.Jamalova**

**Promoting an inclusive approach to classroom management**
**Summary**

This article explores the stimulation of the inclusive approach in classroom management in detail. A fundamental principle of modern education is to provide equal opportunities for all students and ensure their active participation in the learning process. Inclusive strategies take into account each student’s individual needs, interests, and developmental level, thereby

promoting both social and academic integration. Differentiated instruction allows every child to develop according to their potential, while collaborative projects and empathetic approaches create a positive and stimulating classroom environment.

Motivation and reward systems recognize both individual and collective achievements, strengthening students' self-confidence, sense of responsibility, and engagement in learning.

Moreover, active participation of parents and the wider community in the inclusive education process is emphasized as a key factor in sustaining an inclusive classroom environment. Collaboration between school, family, and society facilitates children's social adaptation and reinforces inclusive values at the societal level.

**Redaksiyaya daxil olub:** 10.03.2026